# Muğam bəşəri musiqidir

**Müsahibimiz tanınmış xanəndə, Azərbaycanın Xalq Artisti, “Şöhrət” ordenli, professor Mənsum İbrahimovdur**



***- Mənsum müəllim, muğam sənəti Azərbaycan xalqının qədim mədəniyyətinin böyük bir hissəsini təşkil edir. Son illər muğamın qorunması, inkişafı və təbliği istiqamətində görülən işlər, həyata keçirilən tədbirlər haqqında məlumat verərdiniz...***

- Yaşı xalqımızın tarixi qədər qədim olan muğamlarımıza Azərbaycan dövləti böyük qayğı ilə yanaşır, bu sənətin qorunması üçün təqdirəlayiq işlər görür. Sözsüz ki, bu sahədə Heydər Əliyev Fondunun əməyi danılmazdır. Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın muğama bəslədiyi böyük sevgi, göstərdiyi diqqət və qayğı bu sənətin inkişafına güclü təkan verir. Muğam sənətinin UNESCO-nun Dünya İrsi Siyahısına salınması da Mehriban xanım Əliyevanın əməyi sayəsində mümkün olub. Bu gün muğamın inkişafına böyük töhfələr verən, bu sahədə xidmətləri olan sənətkarlar yüksək qiymətləndirilərək fəxri adlar, təqaüdlər, mükafatlar, orden və medallarla təltif olunurlar. Mübaliğəsiz deyə bilərik ki, xalq sənəti olan muğama dövlətin həyata keçirdiyi qayğı siyasəti muğam sənətkarları ilə yanaşı, tamaşaçıların da ürəyincədir. Dövlət muğam sənətinin bütün nəsillərinə dəyər verir, istər yaşlı, istər orta yaşlı, istərsə də gənc xanəndələr tam olaraq dövlətimizin qayğısı ilə əhatə olunublar. Hətta dünyadan köçən xanəndələr də unudulmur, dövlət tərəfindən onların xatirə günləri, yubileyləri qeyd olunur. Azərbaycan dövlətinin xalqın sərvətini könlündə daşıyanlara verdiyi önəm misilsizdir. Ümumiyyətlə, muğamı yaşadan və onun təbliğində iştirak edən bütün şəxslər dövlətimiz tərəfindən diqqət və qayğı ilə əhatə olunurlar.

***-Yüzlərlə tələbələr yetişdirmisiniz. Onların arasında fəxrlə “bu mənim davamçımdır” deyəcəyiniz tələbələriniz varmı?***

- Mənim ən yaxşı tələbələrim artıq sənət yoldaşlarım olub, Azərbaycan Dövlət Opera və Balet Teatrının solistləridir. Onlar dövlət tədbirlərində iştirak edir, xalq tərəfindən sevilirlər. Demək olar ki, hara gedirəmsə, tələbələrimə rast gəlirəm. Buna çox sevinirəm. Hansısa bir rayonda uşağın səsi xoşuma gəlirsə, onu sinfimə gətirirəm, dərs deyirəm. Mənim işim təkcə dərs deməklə bitmir, onları efirə çıxarıram, müsabiqələrdə hazırlaşdırıram, işə düzəldirəm, valideyn kimi qayğılarına qalıram.

***- Ölkəmizdə keçirilən muğam müsabiqələri qədim ifaçılıq ənənələrini inkişaf etdirərək gənc istedadları üzə çıxarır. Müsabiqələrdə tələbələriniz də iştirak edirlər. Onlar etimadınızı layiqincə doğrultdurlarmı?***

- Cəmiyyətin inkişafına güclü stimul verən mədəniyyətin tərəqqisinə dövlətimizin himayəsi son illər həyata keçirilən genişmiqyaslı layihələrdə öz əksini tapmışdır. Qeyd edək ki, Heydər Əliyev Fondunun 2005-ci ildən davamlı olaraq həyata keçirdiyi muğam müsabiqələri muğam sənətinin inkişafına, yeni, gənc istedadların üzə çıxmasına kömək edir. Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən Muğam televiziya müsabiqələri, Respublika Muğam Müsabiqələri və Beynəlxalq Muğam Festivalları gənc muğam ifaçılarına öz istedadlarını üzə çıxarmağa hərtərəfli imkan yaradır. Müsabiqələrdə tələbələrim iştirak ediblər. Və gözlədiyim nəticələri də əldə ediblər. Muğam Televiziya Müsabiqəsinin maraqlı tərəflərindən biri də odur ki, gənclərə klassik poeziya, qəzəllər öyrədilir. Burada Azərbaycan klassik ədəbiyyatının görkəmli simalarının şeirləri səsləndirilir. Müsabiqələrdə gənclər yetişir, xalqın tükənməz sərvətini qoruyur və təbliğ edirlər.

***- Gənc nəsillə əvvəlki nəsil arasında hansı məqamlarda təzadlar yaranır?***

- Mən buna təzad deməzdim. Amma gənclərdə bəzən görürsən ki, tənbəllik yaranır. Onun da yaranmasının səbəbi odur ki, efirə çıxırlar və tənbəlləşirlər. Amma bunu da hamısı haqqında demək olmaz. Mən sizə deyim ki, çox gözəl səsli uşaqlarımız var, gözəl gəncliyimiz yetişir. Heç vaxt sənətimizə bu qədər gənc axını müşahidə olunmayıb. Əlbəttə, içində təbii ki, ələnənlər də olacaq. Onların hamısı xanəndə ola bilməz. Hərdən qulağıma çatır ki, yaşlı nəslin nümayəndələri deyirlər, bu qədər oxuyan olar? Narahat olmağa dəyməz. Hərənin öz yeri var, amma sənətdə ən yaxşılar qalacaq. Əvvəlki dövrü bu günlə müqayisə edəndə böyük fərq var. O illərdə əlində tar, kamança musiqi məktəbinə gələn az adama rast gəlmək olurdu. Hamı sintezator müəlliminin yanına qaçırdı. Hamısı şou arxasınca düşmüşdü. Bu gün isə vəziyyət tam başqadır. Dövlətin həm maddi, həm də mənəvi cəhətdən sənətçiyə dəstək olması bu sahəyə marağı artırıb.

***- İctimaiyyətdə belə bir fikir formalaşıb ki, Mənsum müəllim çox sadə insandır, hamı ilə yola gedir. Bir adam hamı ilə necə yola gedə bilər? Sizcə muğamın sehrinin burada təsiri varmı?***

- Mən iddiasız adamam, heç kimlə işim yoxdur. Vaxtım da yoxdur, kiminsə söhbətini eləyim, təftiş eləyim, kiminsə həyatından, sənətindən danışım. Elə şeylərdən uzağam. Özüm gücüm çatan işləri bacardığım qədər görürəm. Bu, elə bir sahədir ki, burada iddialılar, rəqiblər çoxdur. Biri uğur qazanmayanda fikirləşir ki, bəlkə də, sən bu yerdə olmasan, mən həmin yerdə olardım və s. Amma başa düşmür ki, belə deyil. Hər kəsin öz yeri var. Uğur qazanmaq üçün çox çalışmalısan. Əlbəttə, təkcə çalışmaq məsələsi də deyil, sənin qəbul olunub-olunmamaq məsələn var. Sənətin, mədəniyyətin, dünyagörüşün, savadın olmalıdır. Bəzi adamlar elə bilir ki, bu, yaşla əlaqədardır. Yaşlısansa, hər yerdə gedib otura bilərsən. Amma belə deyil. İnsanın intellektual səviyyəsi və ədalət prinsipi olmalıdır. Mən necə yola gedirəm? Deyinənlərə gülüb, üzümü çevirib çıxıb gedirəm. Heç fikir də vermirəm. Tələbələrimə də həmişə deyirəm ki, kimsə sizin haqqınızda nəsə desə cavab verməyin, sizin cavabınız ifanızdır. Onlardan danışmaq, sizdən ifa qalacaq. Onların işi çayxanada oturub qeybət eləməkdir - əllərindən gələn budur. Mənim isə vaxtım yoxdur elələrinə baş qoşmağa. İnsanın paxıl və ya ürəyiaçıq olması anadangəlmə bir xarakterdir. Mənim elə insanlara yazığım gəlir. Bu, xəstəlikdir. Paxıl insan öz övladına da, dostuna da paxıllıq edir. Məsələn, birinin uğurunu görür, gecə səhərə qədər yata bilmir, bunu ürəyinə salır. Başa düşmür ki, Allah hərəyə özünə görə ruzi verir. İnsanın gözünün-könlünün tox olması çox böyük xoşbəxtlikdir. Peyğəmbərimizin sözüdür: “Öz nəfsinə qalib gəlmək insanın ən böyük qələbəsidir”. Meydanda olan insanlar haqqında danışacaqlar da, qeybət də edəcəklər, bu, normal bir şeydir. Əgər istəmirsənsə sənin haqqında kimsə danışsın, onda get bir dağın başında - kənddə otur, səni heç kim görməsin. Əgər sən meydana çıxmısansa, sənin haqqında söhbət olacaq. Lap elə sizin sənətinizdə - jurnalistikada da belədir. Biri səni bəyənəcək, biri bəyənməyəcək, bu, təbii şeydir. Sənin haqqında danışırlarsa, deməli, sən varsan. Əksinə, buna sevinmək lazımdır. O zaman pis olmaq olar ki, səni heç kim görməyə.

***- Demək ki, Mənsum müəllimin uğurlarının sirri bundadır?...***

-Atama həmişə təşəkkür etmişəm ki, mənə belə bir tərbiyə verib. Uğurlarımın əsasında tərbiyə və zəhmət durur. Mən işimi görəndə məqsədli, mükəmməl şəkildə görürəm. Operaya gələndə özümə söz vermişdim ki, mən burada ən yaxşı “Məcnun”lardan biri olacağam. Mənim iddiam yaxşı mənadadır. Məsələn, beş nəfər dayanır, biri deyir ki, mən bunların hamısından yaxşıyam. “Mən” sözünü heç vaxt demərəm. Tələbələrimə də demişəm ki, o sözü işlətməsinlər. Qoy sənə qiyməti xalq, sənətkarlar versin. Ağıl hər şeydən üstündür. İnsanın ağlı varsa, yaşı artdıqca müdrikləşir, xarakteri təkmilləşir. İnsan ömrünün istənilən anında hansısa zəif cəhətini düzəldə bilər. Buna iradə lazımdır. Amma, əlbəttə, mən musiqi adamıyam, ovqatım, hissiyyatım başqasınınkından beş dəfə çoxdur. Sadəcə, mən onu şüurlu şəkildə idarə edirəm. Tutaq ki, mənim bir həftədən sonra tamaşamdır, gedim özümü soyuğa verim, səsim batsın, gəlim deyim ki, ay camaat, mən xəstəyəm? Camaatın nəyinə lazımdır mənim xəstə olmağım? Gör nə qədər məsuliyyətsiz adam olasan ki, camaata bu qədər hörmətsizlik edəsən. Tamaşaçı gəlib tamaşaya baxmağa, olmasan üzünü döndərib çıxıb gedəcək. Özü də indiki tamaşaçı əvvəlki tamaşaçı deyil, zorla saxlamaq da olmaz. Ağılla hərəkət etmək lazımdır. Mən toy müğənnisi olmamışam, sırf sənətlə, pedaqoji fəaliyyətlə məşğul olmuşam. Artıq mənim opera səhnəsinə gəlməyimin 30 ili tamamlanıb. Sevinirəm ki, peşəkar səhnədə olmuşam. Bilirsiniz, operada işləmək çox çətindir, sənətkarın sağlamlığını, enerjisini alır əlindən. Bu çətinliyə baxmayaraq, həmişə məsuliyyətlə işləmişəm. Bilirsiniz ki, hər zaman baş rollarda çıxış etmişəm. Mənim fəaliyyətimi, əməyimi qiymətləndirən hər kəsə təşəkkür edirəm.

***-Müsahibələrinizin birində qeyd etmisiniz ki, xanəndə muğamı təbliğ və tərənnüm etməlidir, əgər ifaçı fəxri ad üçün çalışırsa, onun üçün zaman bitir...***

- Elə ifaçılar var ki, fəxri ad alan kimi çalışmağa son qoyur. Xidmətini bitmiş hesab edir. Bu gün dövlətimiz xanəndələrimizin əməyinə böyük qiymət verir. 50 yaşımda “Şöhrət” ordeni ilə təltif olundum. Hər yeni ad alanda elə bilirəm çiynimə ağır bir yük götürürəm. Ona görə ki, o etimadı doğrultmaq lazımdır. Mənim borcum Vətənə, el-obaya, xalqa, dövlətə xidmət etmək, muğamlarımızı yüksək səviyyədə təbliğ etməkdir. Mən tələbələrimə də həmişə deyirəm ki, fəxri ad almağa yox, yaxşı sənətkar olmağa can atın. Vaxtı gələndə hamısını alacaqsınız. Bizim muğamımız heç vaxt bu səviyyədə təbliğ olunmayıb. Muğam bəşəri musiqidir. Bir vaxt efirlərdə yalnız bayağı musiqilər səslənirdi. Muğam ifaçısına oxumaq üçün meydan yox idi. Əlində tar-kamança, qaval yolla gedən uşağa ironiya ilə baxırdılar. Amma bu gün şərəf duyuruq. Əvvəllər müasir toylarımızın heç birində xanəndə olmazdı. Bu gün isə xanəndələrimiz sevilir və qiymətləndirilir.

**Şəmsiyyə Əliqızı,**
**Şəfiqə Dadaşova,**
**Tural Əhmədov, (foto)**
***“İki sahil”***